*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 oktyabr 2018-ci il № 83 (2299) Qiyməti 25 qəpik

# Bakıda VI Beynəlxalq Humanitar Forum işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib

*Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər. "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlətimizin başçısı nitq söylədi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə də toxundu:*



- Qeyd etdiyim kimi, biz humanitar əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bu məsələlər dost ölkələrlə həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində daim gündəlikdədir. Ancaq biz özümüz böyük humanitar fəlakətlə üzləşmişik. Bir həftə bundan əvvəl - oktyabrın 18-də biz Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd etmişik. Cəmi 27 ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və müstəqilliyimizin ilk günləri, ilk illəri çox ağır və faciəvi idi. Həm siyasi böhran, daxili çəkişmələr, vətəndaş müharibəsi, iqtisadi tənəzzül, kütləvi itaətsizlik, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti böyük fəlakətə, bəlalara gətirib çıxardı. Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır, xalqımıza qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır, 1 milyondan çox azərbaycanlı öz doğma torpağında köçkün vəziyyətinə düşmüşdür. Bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər, o cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələrin qəbul olunmasından 25 il keçir. Ermənistan bu qətnamələri icra etmir və əfsuslar olsun, hələ də beynəlxalq mexanizm işlənilməyib ki, təcavüzkarı beynəlxalq aparıcı qurum tərəfindən qəbul edilmiş qətnamələrin icrasına məcbur etsin. BMT-nin Baş Assambleyası oxşar qətnamə qəbul edib, digər beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilir və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi tələb olunur. Münaqişənin həlli üçün yeganə yol məhz budur, ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan dərhal, qeyd-şərtsiz çıxarılmalıdır, - necə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərilir, - və Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpaqlarına qayıtmalıdırlar.

Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, Azərbaycanın ayrılmaz hissəsidir. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Bizim tarixi abidələrimiz, şəhərlərin, kəndlərin toponimləri bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu sübut edir. Əfsuslar olsun ki, təcavüzkar dövlət işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizi də dağıdıb, məhv edib. İşğal edilmiş torpaqlarımıza iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat verib. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib və işğal olunmuş torpaqlarda mədəni soyqırımı törədilib. 1992-ci ildə isə ermənilər Xocalı soyqırımını törədiblər. Bu dəhşətli hərbi cinayət nəticəsində 600-dən çox günahsız dinc insan, onların arasında 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Xocalı faciəsi dünyanın 10-dan çox ölkəsi tərəfindən rəsmi olaraq soyqırımı kimi tanınıb. Bu soyqırımı zamanı mindən çox insan itkin düşüb və onların taleyi haqqında heç bir məlumat yoxdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir.

Bu humanitar fəlakətə baxmayaraq, hesab edirəm ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Düz 7 il bundan əvvəl - 2011-ci il oktyabrın sonlarında Azərbaycan ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur, qələbəmizdir. Ən önəmlisi odur ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.

Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu dövlətlərlə, - təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri BMT Baş katibinin köməkçisi ilə görüşüb

Oktyabrın 25-də Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb.



Görüşdə regiondakı hərbi-siyasi vəziyyət barədə fikir mübadiləsi aparılıb, Azərbaycanın BMT çərçivəsində fəaliyyəti, həmçinin sülhməramlılarımızın müxtəlif missiyalarda iştirakı, o cümlədən beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsinə verdiyi töhfə yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***26 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Seyidli, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Təlim*

# Artilleriyaçılarımız da döyüşə hazırdır

Səhər yenicə açılır. Bu gün də günəş al-qırmızı şüalarını buludlar arxasında gizlədir. Bir azdan havanın soyuq keçəcəyini müəyyən etmək çətin deyildi. Buna baxmayaraq bölmələrin şəxsi heyəti günün nizam qaydasına uyğun olaraq bütün tapşırıqları yerinə yetirir-



di. Zabit Fariz Hüseynovla birgə ön xəttə yola düşürük. Yol boyu zabit bildirdi ki, artıq bir neçə gündür artilleriya bölmələri çöl təlim məşğələlərinə cəlb olunublar. "Bölmələrimizin şəxsi heyəti təsdiq edilmiş plana əsasən gündəlik dərslərini keçir, bilik və bacarıqlarını artırmaq üçün daim öz üzərlərində çalışır. Həftənin ilk dərs günündən etibarən topçularımız çöl təlim məşğələlərinə cəlb olunublar. Təyin olunmuş müdafiə rayonunda müxtəlif çaplı artilleriya qurğularını yerləşdirərək döyüş vərdişlərini təkmilləşdirirlər."

Söhbət zamanı öyrənirəm ki, gedəcəyimiz bölmənin heyəti birliyin keçirdiyi yarışlarda iki dəfə birinci yerə, bir dəfə ikinci yerə çıxıblar. Həmçinin, Beynəlxalq Ordu Oyunları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" yarışında heyət üzvlərindən kiçik çavuşlar Elşad Orucov və Kamil Mirzəyev iştirak ediblər. Onlar keçirilən yarışda fərdi şəkildə birinci yerin, qrup şəklində isə üçüncü yerin sahibi olublar. Təbii ki, iqtisadiyyatına, ərazisinə, ordusunun gücünə görə seçilən bəzi nəhəng dövlətlərlə yarışmağın özü böyük bir qalibiyyətdir. Bizim ordumuz da dünyanın aparıcı orduları sırasındadır. Çünki ölkə başçısının, ordu rəhbərliyinin diqqət və qayğısı nəticəsində bütün bölmələrimiz ən müasir silahlarla təchiz olunub. Bu da bizlərə işğalda olan rayonlarımızı azad etməyə, Dağlıq Qarabağa yenidən qayıtmağa imkan verir.

Zabitlə söhbətləşərək zamanın necə keçdiyinin fərqinə varmadıq. Artıq təlim yerinə çatmışdıq. Təyin olunan artilleriya qurğuları mövqelərdə öz yerlərini tutub, eyni zamanda idarəetmə məntəqələrində təlim üzrə verilən tapşırığa əsasən düşmənin hədəfləri hesablanaraq şəxsi heyətə çatdırılır. Bölmə komandiri baş leytenant Kənan Əfəndiyev dərs prosesi haqqında məlumat verdi: "Bölmənin bütün şəxsi heyəti təlimə cəlb olunub. Gördüyünüz şəxsi heyət hazır vəziyyətdə komanda məntəqəsindən gələcək məlumatı gözləyir. Əsas iş komanda məntəqəsində olan zabitlərin üzərinə düşür. Birinci növbədə avtomatlaşdırılmış idarəetmə sistemi ilə düşmən mövqelərinə qədər olan məsafə təyin olunur. Bu məlumat sistemə daxil olduqdan sonra batareyanın baş zabiti məlumatları xəritə üzərində işləyir. Müxtəlif riyazi hesablamalar aparıldıqdan sonra rabitə vasitəsilə heyətə çatdırılır. Məlumatı alan top komandiri heyətə müvafiq əmr verir. Hər kəs öz vəzifəsinə uyğun verilən tapşırığı icra edir."

Zabit onu da qeyd etdi ki, avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə düşmənin artilleriya silahlarının yerini də təyin etmək olur. "Bölmənin baş zabitinin nəzarətində olan bu sistem vasitəsilə həm öz yerimizi, həm də düşmənin mövqelərini və artilleriya silahlarının yerlərini təyin etmək olur. Bu müasir avadanlıqlar vasitəsilə hədəfi dəqiq təyin etməklə yanaşı, vaxt itkisinin də qarşısı alınır. Əgər döyüşlər başlasa, düşmən artilleriyası hələ atəşə başlamamış darmadağın olacaq."

Top komandiri çavuş Ruslan Orucovdan peşəkar olmasının sirlərini soruşuram. "2008-ci ildə ordu sıralarına çağırılmışam. Hərbi andı qəbul etdikdən sonra ön xətdə yerləşən artilleriya bölməsində xidmətimi davam etdirdim. Bir müddət sonra komandirlərim məni top komandiri təyin etdi. Artıq təkcə əsgər yox, həm də bir heyətin komandiri idim. Bütün günü topun taktiki-texniki xüsusiyyətlərini oxuyur, hər bir detalının iş prinsipini, is-



tifadə qaydasını öyrənirdim. Bilmədiklərimi zabitlərdən soruşurdum. Öyrəndiklərimi isə əsgər yoldaşlarımla bölüşürdüm. Tərxis olub evə qayıdanda kədərlənmişdim. Həm əsgər yoldaşlarımdan ayrılmışdım, həm də silahımdan. Bir müddətdən sonra başa düşdüm ki, hərbçi olmalıyam və orduya qayıtmalıyam. Artıq yeddi ildir ki, Vətənimə xidmət edirəm. Silahımın xüsusiyyətlərini bilsəm də, yenə də öyrənməyə davam edirəm. Bu gün peşəmdə bacarıqlıyamsa, komandir heyətinə borcluyam. İnanıram ki, mən və tabeliyimdə olan heyət döyüş meydanında düşmən üzərində qələbə qazanmaqla bizlərə bu sənəti sevdirən komandirlərimizi sevindirəcək."

Heyət üzvlərindən əsgər Rəşad Süleymanlı bildirdi ki, dərslərin yüksək səviyyədə keçirilməsi onların biliklərini günü-gündən artırır. "Burada hava şəraiti tez-tez dəyişir. Bəlkə də mülki həyatda belə havada ancaq isinmək üçün çalışarıq. Amma burada belə deyil. Dərslərimiz o qədər maraqlı keçir ki, nə havanın soyuqluğunu hiss edirik, nə də vaxtın keçdiyini. Dərs zamanı maraqlı suallar ortaya çıxır. Bilikli zabitlərimizin hesabına bizi düşündürən bütün suallara cavab tapırıq. Təbii ki, bu amil bilik və bacarığımızı zənginləşdirməklə yanaşı, döyüş vaxtı istifadə edəcəyimiz silaha inamımızı daha da artırır. Bu inam bizi tezliklə Qarabağ uğrunda başlayan döyüşlərdə qələbəyə aparacaq."

- Topçularımız hər an döyüşə hazırdır, - deyə leytenant Həbib Bayramlı söhbətimizə qoşuldu. O, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Zabit bildirdi ki, xidmət özü də bir məktəbdir. "Məktəbdə təhsil alarkən zabitlərin bizə öyrətdiklərini diqqətlə dinləyirdim. Həmçinin praktiki çöl məşğələlərində də bilik və bacarıqlarımızı təkmilləşdirirdik. Xidmətə başlayanda gördüm ki, insanın təhsil ocağında aldığı biliklər xidməti dövründə ona kömək olur. Bizlər öyrəndiyimiz bilikləri bu gün tabeliyimizdə olanlarla bölüşürük. Şəxsi heyətin döyüş hazırlığının yüksək olması üçün həm dərslərdə, həm də dərsdən kənar vaxtlarda səfərbər oluruq. Çünki torpaqlarımızın bir hissəsi düşmən tapdağındadır. İstənilən an döyüş başlaya bilər. Düşmən üzərində qələbə qazanmaq üçün isə daim öz üzərimizdə çalışmalıyıq. Bu gün əminliklə demək olar ki, artilleriyaçılar Ali Baş Komandanımızın döyüş əmri ilə düşmənin istənilən hədəfini məhv etməyə və Qələbə bayrağını yüksək zirvələrdə dalğalandırmağa hazırdırlar."

Əsgərlərdən Ədalət Tağıyev, Roman Kərimov və Rauf İsrafilov söhbət zamanı qeyd etdilər ki, çöl şəraitində keçirilən dərslər onların müxtəlif atış tapşırıqlarını imitasiya etmələrində, döyüş hazırlıqlarının artırılmasında müsbət rol oynayır. Şəxsi heyət qarşıya qoyulan fərqli və çətin əməliyyat tapşırıqlarını icra etməyə, artilleriya qurğusunun dağıdıcı və məhvedici qüvvəsi ilə düşməni yerlə-yeksan etməyə hər an hazır olduqlarını da vurğuladı.

Yurdumuzu qoruyan əsgərlərlə bu görüşüm də yaddaşımda silinməz izlər buraxdı. Əlbəttə, belə igid əsgərləri olan Vətən torpağı erməni işğalçılarının tapdağı altında çox qalmayacaq. Tezliklə xalqımız onlardan Qələbə müjdəsini alacaq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisinin İsrailə rəsmi səfəri

*Oktyabrın 23-də Tel-Əviv şəhərində Azərbaycan Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov İsrailin Müdafiə naziri Aviqdor Liberman ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə tərəflər regional təhlükəsizlik, ölkələrimiz arasında hərbi, hərbi-texniki əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

* * *

İsrailə rəsmi səfəri çərçivəsində Azərbaycan Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov oktyabrın 24-də Tel-Əviv şəhərində israilli həmkarı general-leytenant Qadi Ayzenkot ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə rəsmi qarşılanma mərasimi keçirilib. Baş Qərargah rəisləri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Qonaqları salamlayan general-leytenant Q.Ayzenkot vurğulayıb ki, İsrail Azərbaycan ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verir və ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın daha da inkişafı üçün geniş imkanlar mövcuddur.

General-polkovnik N.Sadıkov Azərbaycan-İsrail hərbi əlaqələrinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı səfərlərin zəruriliyini vurğulayıb.



Görüşdə Azərbaycan ilə İsrail arasında hərbi əməkdaşlığın güclənməsinin vacibliyi və dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr xüsusi vurğulanıb.

* * *

İsrailə rəsmi səfəri çərçivəsində Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkənin müdafiə sənayesi müəssisələrini ziyarət edib.

Müdafiə sənayesi müəssisələrində olan general-polkovnik N.Sadıkov hərbi təyinatlı məhsullara baxış keçirərək onların imkanları ilə tanış olub.

# Təlimlərdə döyüş atışları icra edilib

*Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun dünya standartlarına uyğun formalaşması, yenilənməsi və təkmilləşdirilməsi prosesi uğurla davam etdirilir. Hazırda öz təşkilat strukturuna, təlim imkanlarına, hərbi təchizatına və digər xüsusiyyətlərinə görə yüksək standartlara cavab verən Azərbaycan Ordusu döyüş hazırlığına görə də aparıcı ölkələrin sıralarında qərarlaşıb.*

Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsi durmadan yüksəldilir, şəxsi heyət müasir silah və texnika ilə təchiz edilir, yeni poliqonlar inşa edilir, döyüş şəraitinə uyğun təlimlər həyata keçirilir.

Müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrin iştirakı ilə keçirilən təlimlərdə əsas diqqət qərargahların döyüşə hazırolma qabiliyyətinin, o cümlədən qərargahlar arasında hərbi hissələrin bir-biri ilə qarşılıqlı fəaliyyətinin yoxlanılmasına yönəldilir. Təlimlərdə qoşunlar şərti düşmənin hücumunun qarşısının alınması, onun atəşlə tələfata uğradılması, əks-zərbə endirməklə müdafiənin əlverişli hədlər üzrə bərpa olunması və genişmiqyaslı əks-hücum əməliyyatının keçirilməsi tapşırıqlarını da yerinə yetirirlər.

Azərbaycan Ordusunda keçirilən təlimlərin ölkəmizin müdafiəsi üçün müstəsna əhəmiyyəti var. Bundan başqa təlimlər, yoxlamalar və digər tədbirlər zabit və əsgərlərimizin müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduqlarını, döyüş qabiliyyətlərini və peşəkarlıqlarını, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarıqlarını əhəmiyyətli dərəcədə artırdıqlarını göstərir. Son illər ən müasir silahlarla - zirehli maşınlar, tanklar, artilleriya qurğuları və digər texnikalarla təchiz olunan Azərbaycan Ordusunun təlimləri, nümayiş etdirdiyi paradlar, qazandığı aprel və Günnüt zəfərləri sübut edir ki, düşmənin istənilən hədəfini məhv etməyə qadirik.



Azərbaycan Ordusunun döyüş hazırlığının yüksəldilməsi məqsədilə Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən bu günlərdə motoatıcı bölmələrin, PDM ekipajlarının, raket və artilleriya birləşmələrinin, hava hücumundan müdafiə bölmələrinin şəxsi heyəti poliqonda təlim atış çalışmalarını icra edib, müxtəlif təlim mərkəzlərində taktiki təlimləri yerinə yetiriblər.

Hərbi qulluqçular avtomat, minaatan və qumbaraatanlardan müxtəlif məsafələrdə yerləşən hədəflərin vurulması üzrə tapşırıqları yerinə yetiriblər.

Gündüz və gecə vaxtı keçirilən təlimlərdə zirehli texnika ekipajlarının döyüş vərdişləri təkmilləşdirilib.

Təlimlərin növbəti mərhələsində "OSA" zenit-raket komplekslərindən döyüş atışları icra edən hava hücumundan müdafiə bölmələri şərti düşmənin hava hədəflərini məhv ediblər.

Təlimlərdə artilleriya bölmələri marş icra etmə, cəmləşmə rayonlarına çıxma, atəş və start mövqelərini tutma, döyüş atışlarının icrası və digər tapşırıqların yerinə yetirilməsi üzrə məşqlər ediblər.

Tarixi torpaqlarımızın işğal altında qalması tələb edir ki, Azərbaycan Ordusunun şəxsi heyəti hər zaman yüksələn xətt üzrə döyüş hazırlığını artırsın. Gələcəkdə müqəddəs vəzifəmizin təmin edilməsinə yardımçı olacaq təlimlər şəxsi heyətdə döyüş hazırlığının yüksəldilməsi, vərdişlərin təkmilləşdirilməsi, ağır şəraitdə aparılan müasir ümumqoşun döyüşünün hərbi elementlərinin qarşılıqlı fəaliyyəti və döyüş uzlaşmasının səviyyəsinin artırılması kimi qəbul edilməlidir. Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə dövlətimizin təhlükəsizliyi, torpaqlarımızın işğaldan azad edilməsi, bayrağımızın müqəddəs ərazilərimizdə dalğalandırılması... naminə döyüş hazırlığını lazımi səviyyədə saxlayır.

**"Azərbaycan Ordusu"**

## "ABŞ Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərini bundan sonra da davam etdirəcək"

*Oktyabrın 24-də ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycana səfərinin nəticələri ilə bağlı mətbuat konfransı keçirib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti ilə görüşündən məmnunluğunu ifadə edən Con Bolton dövlət başçısı ilə ABŞ-Azərbaycan əməkdaşlıq əlaqələrinin müxtəlif aspektləri, dünya enerji bazarında Azərbaycanın rolu, terrorizmə, insan alverinə, narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə, insan haqları, habelə regionda cərəyan edən siyasi və iqtisadi proseslər, region ölkələri ilə münasibətlər və digər məsələlərin müzakirə olunduğunu bildirib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət ayrıldığını diqqətə çatdıran ABŞ rəsmisi qeyd edib ki, bu problemin həlli Birləşmiş Ştatlar üçün də mühüm əhəmiyyət kəsb edir. Qarşıdakı dövrdə Ermənistana səfər edəcəyini, məsələ ilə bağlı rəsmi Yerevanın da mövqeyi ilə tanış olacağını vurğulayan Con Bolton əlavə edib ki, ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ bundan sonrakı dövrdə də münaqişənin həlli istiqamətində səylərini davam etdirəcək.

# Fransada azərbaycanlı partizanların xatirəsi anılıb

*Fransa Müqavimət Hərəkatında və Kabertat Partizan Hərəkatı Üçüncü Qusar Polkunun sıralarında döyüşmüş azərbaycanlı partizanların xatirəsi anılıb.*





Anım mərasimində Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, səfirliyimizin 1-ci katibi Tural Rəsulov, Montoban və Vassiyak şəhərlərinin merləri və meriyalarının nümayəndələri, Kabertat Partizan Hərəkatı Dostları Assosiasiyasının üzvləri iştirak ediblər.

Tədbir iştirakçıları İkinci Dünya müharibəsi illərində Fransa Müqavimət Hərəkatının əfsanəvi iştirakçısı Əhmədiyyə Cəbrayılovun və Kabertat Partizan Hərəkatı Üçüncü Qusar Polkunun sıralarında döyüşmüş azərbaycanlı partizanların xatirəsinə ucaldılmış abidə önündə azərbaycanlı əsgərlərin şücaətini hörmətlə xatırlayıblar.

Azərbaycan səfiri İkinci Dünya müharibəsi zamanı azərbaycanlıların faşizm üzərində qələbəyə böyük töhfə verdiyini xatırladıb. 600 mindən artıq həmvətənlimizin müharibədə iştirak etdiyini və onların yarısının canlarından keçərək həlak olduğunu qeyd edib. Azərbaycanlıların Avropadakı Müqavimət Hərəkatının bir çox üzvləri ilə çiyin-çiyinə vuruşmasından danışıb.

Azərbaycan səfirliyi, Montoban və Vassiyak meriyaları adından Əhmədiyyə Cəbrayılovun və Kabertat Partizan Hərəkatı Üçüncü Qusar Polkunun sıralarında döyüşmüş azərbaycanlı partizanların xatirəsinə ucaldılmış abidə önünə əklillər qoyulub.

Azərbaycan və Fransanın himnləri səsləndirilib, bayraqlar endirilib.

Tədbir iştirakçıları Fransanın azadlığı uğrunda rəşadətlə vuruşmuş azərbaycanlı əsgərlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Qeyd edək ki, Fransa Müqavimət Hərəkatında iştirak etmiş azərbaycanlı Əhmədiyyə Cəbrayılov Fransanın Milli Qəhrəmanı fəxri adı, həmçinin "Müharibə Xaçı", "Hərbi Şücaət Xaçı" və Fransa Müqavimət Hərəkatının medalları ilə təltif olunub.

* * *

Azərbaycan dövləti İkinci Dünya müharibəsində vətəndən uzaqda başqa millətlərin nümayəndələri ilə Fransanın azadlığı uğrunda çiyin-çiyinə vuruşaraq həlak olmuş azərbaycanlı döyüşçüləri unutmur, onların xatirəsini daima yad edir.

Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev Aveyron departamentinin Rodez şəhərinin qəbiristanlığında dəfn olunmuş azərbaycanlı döyüşçülərin xatirəsini yad etmək üçün şəhər qəbiristanlığında olub.

Səfir İkinci Dünya müharibəsində ölkəmizin qələbənin əldə olunmasındakı rolundan, Fransa Müqavimət Hərəkatında iştirak edən azərbaycanlı əsgərlərdən danışıb.

Səfirliyimiz adından Fransanın azadlığı uğrunda döyüşmüş gənc əsgər Mişel Hüseynovun qəbri üzərinə əklil qoyularaq, İkinci Dünya müharibəsində həlak olan azərbaycanlı əsgərlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qəbiristanlıqda çox sayda naməlum əsgərin qəbri yerləşən məkanda Azərbaycan əsgərlərinin xatirəsinə abidə ucaldılıb. Abidənin üzərində "Fransa uğrunda həlak olan azərbaycanlı döyüşçülərin xatirəsinə" sözləri həkk edilib.

Qeyd edək ki, yerli mətbuat və televiziya kanallarının jurnalistləri anım mərasimində olublar.

**AZƏRTAC-ın materialları əsasında**

## ISESCO-nun baş direktoru:

# Azərbaycan sülhün, sabitliyin mərkəzidir

Altıncı Bakı Beynəlxalq Humanitar Forumunda müasir dünyamız üçün çox vacib olan məsələlər müzakirə edilir. Azərbaycanın bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir. Azərbaycan sülh, təhlükəsizlik məsələlərində mühüm işlər həyata keçirib. Prezident İlham Əliyev dünya miqyaslı liderdir. O, ölkəsinin inkişafı üçün mütərəqqi addımlar atır. Mən 2004-cü ildən buraya gəlirəm və bütün bu proseslərin şahidiyəm. Sürətlə inkişaf edən Azərbaycan sülhün, sabitliyin mərkəzidir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri bildirib.

Baş direktor Azərbaycan ilə ISESCO arasında uzun illər ərzində uğurlu, səmərəli əməkdaşlığın qurulduğunu qeyd edib, əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini bildirib.

# Veteranlara diqqət və qayğı yüksək səviyyədədir

*Lənkəran şəhərində Heydər Əliyev Mərkəzində Lənkəran şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının birgə təşəbbüsü ilə oktyabrın 23-də veteranlarla görüş keçirilib.*



Görüşdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov, Təşkilatın sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov, Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, yerli qurumların rəhbərləri, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Astara və Lerik rayon Veteran Təşkilatlarının üzvləri iştirak ediblər. Görüşdə veteran təşkilatlarının fəaliyyəti, onların qarşısında duran vəzifələr və yerli icra hakimiyyəti orqanları ilə birgə işin daha da səmərəli təşkilində bu təşkilatlara lazımi köməkliyin göstərilməsi və s. məsələlər müzakirə edilib.

Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov veteranlarla bağlı dövlət səviyyəsində görülən işlərdən, ölkə Prezidenti tərəfindən onların qaldırdıqları məsələlərin həllinə göstərilən davamlı diqqətdən söz açdı. İcra başçısı onu da bildirdi ki, Lənkəranda veteranların sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların rayonun ictimai-siyasi həyatında yaxından iştirakına imkanların yaradılması daim diqqətdə saxlanılır. Taleh Qaraşov gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rolu olan veteran hərəkatının daha da güclənməsi üçün şəhər İcra hakimiyyətinin bundan sonra da səylərini əsirgəməyəcəyini qeyd etdi. Respublika Veteranlar Təşkilatının 30 illik yubileyi münasibəti ilə hər bir veteranı təbrik edən icra başçısı, təşkilatın bu illər ərzində dövlət siyasətinin həyata keçirilməsində rolunu vurğuladı və təşkilata bundan sonrakı fəaliyyətində uğurlar arzuladı.

Çıxış edən Respublika Veteranlar Təşkilatın sədri istefada olan general-polkovnik Tofiq Ağahüseynov təşkilatın fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat verdi. Vətənpərvərliyin təbliği, gənc nəslin azərbaycançılıq ideologiyası ilə tərbiyə edilməsi istiqamətində təşkilatın üzərinə düşən işin məsuliyyətindən bəhs etdi. "30 illik yubiley münasibəti ilə təntənəli mərasim və "Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar" mövzusunda beynəlxalq konfrans yüksək səviyyədə təşkil edildi. Keçirilən konfrans Azərbaycan tolerantlığını təbliğ etmək, erməni işğalçılığını dünya ictimaiyyətinə çatdırmaq baxımından xüsusi əhəmiyyət kəsb edirdi."

Sədr sonda Lənkəran və ərtaf rayonlarda veteranlara göstərilən diqqət və qayğını, yerli veteran təşkilatlarının rolunu müsbət dəyərləndirdi.

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov qonaqpərvərliyə və təşkilatçılığa görə Lənkəran şəhər İcra Hakimiyyətinə minnətdarlığını bildirdi. Sədr müavini ölkəmizdə həyata keçirilən quruculuq işləri, Azərbaycanda müasir, güclü ordunun qurulması və Respublika Veteranlar Təşkilatının ölkə həyatında, ictimai-siyasi proseslərdə yaxından iştirakı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. O, Lənkəranın, eləcə də ətraf rayonların ziyalı və veteranlarının bu işlərdə rolunu yüksək qiymətləndirdi.

Digər çıxış edənlər ölkəmizdə veteranların hərtərəfli diqqət və qayğı ilə əhatə olunduğundan, onların gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində fəaliyyətindən bəhs etdilər.

İstefada olan general-polkovnik Tofiq Ağahüseynov Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovu "Həzi Aslanov yubiley medalı" və iştirak edən rayon Veteranlar Təşkilatlarının sədrlərini isə təşkilatın "30 illik yubiley medalı" ilə təltif etdi.

Sonda tədbir iştirakçıları Heydər Əliyev mərkəzinin önündə xatirə şəkli çəkdirdilər.

**"Azərbaycan Ordusu"**

# "Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır"

*Bu gün hər bir Azərbaycan vətəndaşı dərk edir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyimiz yeganə güc məhz Azərbaycan Ordusudur.*



Ölkəmizdə ordu quruculuğunun yeni mərhələsinin başlandığını elan edən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirmişdir ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq: "Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında da ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib."

Heç də təsadüfi deyil ki, Ali Baş Komandanımızın nitqindən dərhal sonra işğalçı Ermənistanın mətbuatı bu çıxışda səsləndirilən hər bir fikri ayrı-ayrılıqda təhlil etməyə başlayıb. Ancaq düşmənin məsələyə hər hansı münasibəti reallığı dəyişmir. Məhz son bir neçə ildə Azərbaycan Ordusu bir-birinin ardınca elə qələbələrə imza atıb ki, artıq Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qeyd- şərtsiz azad etməkdən başqa çıxış yolu qalmır. İndi Ermənistan KİV-ləri və sosial şəbəkələri Azərbaycanın güclü ordusu haqqında etiraflarını davamlı olaraq dilə gətirirlər.

Ordumuzun 2016-cı ilin şanlı aprel döyüşlərindən sonra Günnüt zəfəri də ermənilərdə ciddi narahatlıq yaradıb. Bu o deməkdir ki, Azərbaycan cəbhə bölgəsində hədəfinə doğru cəsarətlə irəliləyir. Ali Baş Komandan İlham Əliyev dəfələrlə vurğulayıb ki, düşmənin elə bir hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin.

Son bir neçə ildə Azərbaycanın dövlət büdcəsindən irihəcmli vəsaitlər məhz ordunun inkişafına, onun təchizatının yüksəlməsinə ayrılır. Təbii ki, bu belə də olmalıdır. Çünki müharibə aparan ölkənin güclü ordusunun olması şərtdir. Ölkə başçısının da dediyi kimi, ordumuz qısa müddətdə işğal altında olan ərazilərimizi erməni terrorçularından təmizləməyə qadirdir. O günə çox az qalıb və biz tezliklə Dağlıq Qarabağda hərbi paradımızı keçirməyə nail olacağıq.

Təbii ki, bunlar gəlişi gözəl sözlər deyildir, real gücə söykənən qəti fikirlərdir. Çünki Prezident İlham Əliyevin diqqəti, qayğısı və rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatlar nəticəsində Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusuna çevrilib. 2003-cü ildən indiyə qədər Azərbaycanın hərbi büdcəsi 15 dəfə artıb.

Prezident İlham Əliyevin ordu quruculuğundakı digər mühüm prinsipial siyasəti ölkənin hərbi sənayesinin yaradılması ilə bağlıdır. Məhz bu amili vaxtında dəyərləndirən Prezident İlham Əliyev müharibə vəziyyətində yaşayan respublikamızın Silahlı Qüvvələrinin maddi-texniki bazasını milli məhsullar hesabına daha da gücləndirmək məqsədilə 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyini yaratdı. Həmin dövrdən başlayaraq nazirliyin müəssisələrində silah, sursat və hərbi vasitələrin istehsalının genişləndirilməsi və keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu gün nazirliyin tərkibində müdafiə sənayesi müəssisələrinin sayı 58-ə, istehsal məmulatlarının çeşidi 1200-ə çatıb. Bu illər ərzində nazirliyin müəssisələrində ümumi məhsul istehsalının həcmi 6,7 dəfə, müdafiə təyinatlı məmulatların həcmi 42 dəfə artıb. Ən mühüm amil isə odur ki, Azərbaycan dövləti artıq istehsal etdiyi silahlarını xaricə ixrac edir. Artıq 10 ölkə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi məhsulları öz silahlı qüvvələrində istifadə etmək, hərbi güclərini artırmaq üçün alır. Son 10 ildə hərbi məhsullarımızın ixrac həcmi 2,7 dəfə artıb.

Son 4 ildə dörd hərbi zavodun açılması reallaşıb. 2017-ci ildə respublikanın güc strukturlarına təhvil verilmiş müdafiə təyinatlı məmulatların həcmi 2016-cı illə müqayisədə 7,3 faiz artıb.

Müdafiə sənayemizin davamlı olaraq böyüməsi ilə ölkəmiz xarici ölkələrin silah-sursat asılılığından azad olur. Bu, müharibə aparan ölkə üçün çox önəmli amildir. Azərbaycan MDB məkanında dörd ölkədən biridir ki, onun müasir tələblərə cavab verən müdafiə sənayesi mövcuddur. Eyni zamanda qürurverici haldır ki, bu gün ölkəmiz ən müasir silahların ixracatçısıdır. Prezident İlham Əliyev iclasların birində bu barədə deyib: "Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib."

Bu bir həqiqətdir ki, Azərbaycan Ordusu bu gün ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə qadir bir qüvvədir. Ali Baş Komandanın bir əmri kifayətdir ki, ordumuz torpaqlarımızın işğaldan azad edilməsi uğrunda müqəddəs mübarizəyə başlasın. Prezident İlham Əliyev həmin müqəddəs günün uzaqda olmadığının anonsunu verdi.

**Ehtiram AŞIRLI,**
**analitik-icmalçı**




# Torpağı Vətən edənlərə ehtiram

*Oktyabrın 24-də Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsi çərçivəsində növbəti tədbir baş tutub. Tədbirin əsas məqsədi yeniyetmə və gənclər arasında vətənpərvərliyin təbliğ edilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması yolunda canından keçmiş, Vətən, xalq qarşısında əvəzsiz xidmətləri olan şəhidlərimizin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ olunmasıdır.*

İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibəsi, Əmək və Silahlı Qüvvələr veteranları, gənclərin, ziyalıların, ictimaiyyətin və medianın nümayəndələrinin iştirak etdiyi tədbir ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.



Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müavini, layihənin rəhbəri ehtiyatda olan polkovnik Cəlil Xəlilov layihə çərçivəsində həyata keçirilmiş tədbirlər, görülmüş işlər barəsində məlumat verərək, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında Təşkilatın geniş fəaliyyətindən danışdı. O, belə tədbirlərin daimi xarakter daşımasını və geniş auditoriyanı əhatə etməsini zəruri hesab etdiyini bildirdi.

Tədbirdə layihə çərçivəsində hazırlanıb çap olunmuş beş Qarabağ və aprel şəhidinin döyüş və həyat yolundan bəhs edən "Torpağı Vətən edənlər" kitabçasının təqdimatı keçirildi. Layihə və kitabçanın müzakirəsi çərçivəsində Respublika Veteranlar Təşkilatının şöbə müdirləri, ehtiyatda olan polkovniklər Adil Haqverdiyev və Lətif Babayev, Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Bədirxan Əhmədov, Qarabağ müharibəsi veteranı, jurnalist Elçin Müseyiboğlu, Əfqanıstan müharibəsi veteranı polkovnik Elşad Şabanov, şəhid ailələrinin və ictimaiyyətin nümayəndələri, veteranlar çıxış edərək yeniyetmə və gənclərin şəhidlərimizin həyat və döyüş yolunu öyrənmələrinin mühüm əhəmiyyət kəsb etdiyini bildirdilər, Vətən, torpaq yolunda həyatlarını qurban vermiş insanların xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğunu və onların əbədi həyat qazandıqlarını qeyd etdilər.

Tədbirin sonunda kitabça tədbir iştirakçılarına paylanıldı, veteranlar gənclərlə xatirə şəkli çəkdirdilər.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında.**

**2. Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında.**

**3. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.**

**Mövzu:** Azərbaycan Respublikası Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında*

Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiya layihəsi hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində - referendum yolu ilə qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

**Azərbaycan Respublikasının Konstitusiyasında dövlət hakimiyyəti haqqında aşağıdakı məqamlar açıqlanır:**

- Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir;
- sərbəst və müstəqil qayda da öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir;
- xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur;
- Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidiyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir;
- İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir və 125 deputatdan ibarətdir. Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Milli Məclisin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

**Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı müddəalar açıqlanır:**

- Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər;
- Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir;
- Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir;
- Azərbaycan Respublikası Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır;
- Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında*

**Azərbaycan dövlətinin siyasi əsasları aşağıdakılardır:**

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.
- Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər;
- Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir;
- Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir;

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**Azərbaycan dövlətinin iqtisadi əsasları aşağıdakılardır:**

- Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur;
- İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq, xalqın rifahının yüksəldilməsinə xidmət edir;
- Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır.

### *Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Silahlı Qüvvələrin yaradılması zəruri oldu. Bu, həm də ölkəmizin erməni təcavüzünə qarşı mütəşəkkil şəkildə mübarizə aparması üçün lazım idi. Bir sözlə, Silahlı Qüvvələrin formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi.

Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan hərbi quruculuq prosesi ölkəmizdə bu gün də uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ordu quruculuğu dövlətimiz üçün ən başlıca məsələdir. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu sistemin prioritet istiqamətlərindəndir.

Ölkəmizin təcavüzdən, silahlı hücumdan müdafiəsinin təmin edilməsi üçün Azərbaycan Ordusunda əsas diqqət qoşunların döyüşə hazırlıq və səfərbərlik tədbirlərinə yönəldilib. Müasir təhdidlərə, risklərə və çağırışlara cavab vermək məqsədilə qoşunların döyüş qabiliyyətinin artırılması istiqamətində hərtərəfli kompleks tədbirlər icra edilir.

2018-ci il orduda komandir hazırlığı və bütün səviyyədə olan komandirlərin real döyüş şəraitində qoşunların və silahların idarə edilməsi üzrə bacarıq və vərdişlərinin təkmilləşdirilməsi ili elan olunub.

Ordunun inkişafını müəyyən edən əsas amillərdən biri də şəxsi heyətin 80 faizinin müqavilə əsasında xidmət edən hərbi qulluqçularla komplektləşdirilməsi olub. Əsas döyüş təminatını müəyyən edən vəzifələrə ixtisaslı mütəxəssislərin və peşəkar hərbi qulluqçuların təyin edilməsi ordumuzun döyüş hazırlığının yüksəlməsinə müsbət təsir göstərib. Şəxsi heyətin təsərrüfat işlərindən azad olunmasını təmin etmək məqsədilə yardımçı təminat sahələrinə 21 min nəfərədək mülki işçi qəbul edilib. Bu, döyüş hazırlığının optimallaşdırılması istiqamətində atılan ən vacib addımlardandır.

Hərbçilərimiz regional və beynəlxalq səviyyədə keçirilən müxtəlif təyinatlı taktiki və kompüter dəstəkli irimiqyaslı təlimlərdə mütəmadi olaraq iştirak edirlər.

Cari ilin may ayında İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimində və iyun ayında Qars şəhərində keçirilən Türkiyə-Azərbaycan birgə taktiki təlimində də hərbçilərimiz yüksək nəticələr əldə ediblər.

2018-ci il ərzində Almaniya, Böyük Britaniya, Türkiyə, Gürcüstan, Serbiya, Bolqarıstan, İrlandiya, Yunanıstan, Norveç və digər ölkələrdə keçirilmiş müxtəlif təlimlərdə hərbi qulluqçularımız qüvvə qismində və qərargah zabitləri səviyyəsində təmsil olunublar.

Rusiya, Belarus, Ukrayna kimi tərəfdaşlarımızla yanaşı, qardaş Türkiyə, o cümlədən İran, Pakistan, İsrail, Cənubi Afrika Respublikası və digər inkişaf etmiş dövlətlərlə qarşılıqlı əməkdaşlıqda hərbi imkanlarımız genişlənir.

2016-cı ilin aprel ayında Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin may ayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatlar nəticəsində mümkün olub.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək səviyyəsinə çatan Azərbaycan Ordusu təchizat səviyyəsinə, döyüş hazırlığına, şəxsi heyətinin mənəvi keyfiyyətinə, idarəetmə strukturlarının peşəkarlığına görə dünyanın ən güclü ordularından biridir.

Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun ən yaxşı ənənələri bizim müasir və güclü ordumuzun simasında öz əksini tapmışdır. İyunun 26-da Azərbaycan Ordusunun 100 illik yubileyi ilə əlaqədar Azadlıq meydanında hərbi parad keçirilib. Hərbi paradda 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar, eləcə də hərbi gəmi və katerlər nümayiş olunub.

Bu gün Azərbaycan Ordusunun qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Ordenli igidlərimiz*

# "O, Vətənini ən ülvi hisslə sevirdi"

*Oktyabrın 24-də Suraxanı rayonundakı Heydər Əliyev Mərkəzində, Suraxanı rayon İcra Hakimiyyəti və Veteran Tankçılar Birliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan Bayrağı" ordenli, şəhid baş leytenant Əhməd Suliddin oğlu Möhbalıyevin anadan olmasının 50 illik yubileyinə həsr olunmuş anım mərasimi keçirildi.*



Tədbirdə şəhidin ailə üzvləri, döyüş yoldaşları, ictimaiyyət nümayəndələri və məktəblilər iştirak edirdilər. İştirakçılar tərəfindən əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə əklil qoyuldu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Tədbirin rəsmi hissəsi Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Çıxış edən tədqiqatçı-jurnalist, "Azərbaycan Ordusu" qəzetinin müxbiri Lalə Hüseynova Azərbaycan Ordusunun birinci tank taborunun tərkibində Laçın, Qubadlı, Kəlbəcər, Şuşa, Ağdam, Tərtər bölgələrində gedən ağır döyüşlərdə qəhrəmancasına vuruşan şəhid Əhməd Möhbalıyevin döyüş yolundan söz açdı. "Əhməd Naxçıvan Muxtar Respublikasının Kəngərli rayon Qıvraq qəsəbəsində anadan olub.

O, hələ uşaq yaşlarından hərbçi olmaq, zabit mundiri geyinmək arzusunda olub. Elə bu arzu da onu Cəmşid Naxçıvanski adına Hərbi Məktəbə gətirib. Daha sonra təhsilini Kazan Ali Tank Qoşunları Məktəbində davam etdirib. Kiyev və Moskvada tank qoşunları diviziyasında xidmət edib. Qarabağ müharibəsi başlayanda, Sovet Ordusunda xidmət edən digər azərbaycanlı zabitlərimiz kimi, Əhməd də doğma torpaqların müdafiəsində dayanmaq üçün Vətənə dönüb, Azərbaycan Milli Ordusunda baş leytenant kimi xidmətə başlayıb. Peşəkar zabit kimi çoxlu sayda əsgər yetişdirib. Qızğın döyüşlər zamanı öz təkidi ilə ön cəbhəyə yollanıb. Təcrübəli tankçı kimi torpaqlarımızın müdafiəsi uğrunda qəhrəmancasına vuruşub. Saysız erməni tankını sıradan çıxarıb. Mahir tankçı 1993-cü il iyunun 26-da Ağdamın Qızıllı-Kəngərli kəndlərinin müdafiəsi uğrunda düşmənlə ölüm-dirim savaşına girib. Həmişə olduğu kimi, yenə idarə etdiyi tankı ilə öndə vuruşan Əhməd qəhrəmancasına şəhid olub. Bakıda Şəhidlər xiyabanında dəfn olunub.

Əhməd Möhbalıyev 1989-cu ildə leytenant, 1991-ci ildə baş leytenant rütbəsi alıb. 1994-cü ildə "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb. Suraxanı rayonundakı mərkəzi küçələrdən biri onun adını daşıyır."

Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov bildirdi ki, torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalanların xatirəsini daim yüksək tutmaq, onları gəncliyə nümunə göstərmək hər kəsin vətəndaşlıq borcudur. "Bu mövzuda danışmaq qürurverici və bir o qədər də çətindir. Şəhidlik elə bir uca zirvədir ki, ana Vətən uğrunda canını qurban verib bu zirvəyə yüksələn soydaşlarımız bizim aramızda olmasa da, ürəklərimizdə hər zaman yaşayırlar. Bu gün ölkəmizdə vətənpərvərliyin təbliği işi uğurla aparılır. Müasir yeniyetmə və gənclərimiz Vətənimizi sevib, onun uğrunda canından keçən şəhidlərimizi heç vaxt unutmur, onlarla daim fəxr edirlər. Hər biri şəhidlərimizin qısa, lakin şərəfli ömür yolunu daim özlərinə örnək bilərək, qəhrəmanlığı onlardan öyrənirlər. Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün dünya miqyasında seçilən ölkələr sırasında yer alır. Müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumağa qadir olan müzəffər orduya sahibik və əminliklə deyə bilərik ki, tez bir zamanda əzəli və əbədi ata-baba yurdlarımıza qayıdacağıq. Üçrəngli bayrağımız Qarabağda Şuşada, Xankəndidə dalğalananda, Əhməd kimi Vətən uğrunda son damla qanına qədər vuruşaraq şəhid olan igid oğullarımızın ruhları rahatlıq tapacaq".

Anım mərasimində şəhidin döyüş yoldaşları adından çıxış edən, vaxtilə Ə.Möhbalıyevin komandiri olmuş ehtiyatda olan kapitan Hacı Əzimov onun qəhrəmanlıqla dolu döyüş yolundan, peşəkarlığından və vətənpərvərliyindən bəhs etdi. O qeyd etdi ki, Əhməd kimi peşəkar zabitlər o zaman yenicə yaranmaqda olan Azərbaycan Ordusunda çox az idi. "Əhməd tank qoşunları üzrə təhsil alan ilk kadr zabitlərindən olub. Baş leytenant kimi Milli Ordumuzda xidmətə başlayan Əhməd heç vaxt tapşırıqdan boş qayıtmaz, mahir tankçı kimi tanınardı. Özünün cəsurluğu, çevikliyi, yüksək fiziki və taktiki hazırlığı ilə şəxsi heyət arasında seçilirdi. Ən çətin əməliyyatlarda öndə gedirdi. Yoldaşlıqda, dostluqda əvəzsiz bir insan idi. Onun adı qəlbimizdə daim yaşayır. Hər birimiz onun və şəhid olan bütün döyüşçülərimizin xatirəsini daim əziz tutur, onların məzarlarını tez-tez ziyarət edirik. Əhməd kimi oğulların şərəfli ömür yolu Azərbaycan Ordusunun şəxsi heyətinə hər zaman nümunədir, Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Zabit, həmçinin xəstəxanaya zabit yoldaşına baş çəkməyə gələn Əhmədin də yaralı olduğunu görən həkimlə arasında baş tutan dialoqu da tədbir iştirakçılarının nəzərinə çatdırdı. "Əhməd Möhbalıyevin yarasını təmizləyərək sarıyan həkim ona deyir ki, siz həkim nəzarətində olmalısınız, bu yaralar ayaqüstə sağalan deyil. Əhməd "yaram boş şeydi, təki Vətənin yarası sağalsın, mənim yaralarım, bax, onda özü sağalacaq", - deyərək yenidən ön xəttə yollanır. Elə axırıncı döyüşdə də ağır yaralandı, lakin döyüşdən çıxmadı, son damla qanına kimi vuruşdu və şəhid oldu".



Tədbirdə "Azərbaycan Bayrağı" ordenli şəhid Əhməd Möhbalıyevin timsalında şəhid olan oğullarımıza həsr olunmuş mahnı səsləndirildi. "Dədə Qorqud" Milli Fondu tərəfindən Əhməd Möhbalıyevə "Həzi Aslanov" ordeni (ölümündən sonra), həyat yoldaşına isə "Mehriban ana" ordeni təqdim edildi. Tədbirin təşkili və ərsəyə gəlməsində zəhməti keçən şəxslər diplom və plaketlərlə mükafatlandırıldılar.

Sonda ailə üzvləri adından çıxış edən şəhidin qardaşı Xaliq Möhbalıyev tədbirin təşkilatçılarına və iştirakçılarına dərin minnətdarlığını bildirdi. O qeyd etdi ki, azadlığı, müstəqilliyi, babalardan miras qalan, torpağı uğrunda şəhidlər verən xalq xoşbəxt xalqdır. "Bu mənada xalqımızın qürur hissi keçirməyə, başını uca tutmağa tam mənəvi haqqı çatır. 1990-cı ilin 20 Yanvar gecəsində, Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə, aprel və Günnüt zəfərlərində xalqımızın yüzlərcə igid övladı uca şəhidlik zirvəsinə yüksəlib. Həmin zirvələrdə adı hallanan mərd oğullar sırasında ailəmizin üzvünün də olması hər birimiz üçün qürur mənbəyidir. Biz Əhmədi çox görməmişdik. On dörd yaşından öz istəyi ilə hərbi məktəbə gedib. Ancaq tətillərdə görürdük. Ön xətdə xidmət etdiyi zaman məzuniyyətə gələndə əvvəlcə Şəhidlər xiyabanına gedərdi, sonra evə. Bütün xalq onu sevdi. Qəhrəman kimi böyümüşdü, qəhrəman kimi də şəhidlik məqamına qovuşdu. Mən bir qardaş kimi Əhmədlə qürur duyuram. Düzdür, o, həyatda yoxdur, amma qürur duyuram ki, Vətən yolunda getdi, təki Vətən sağ olsun."

Şəhidin qardaşı ölkə səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan da söz açdı. "Bu gün Əhməd və digər şəhidlərin arzularının bir çoxu həyata keçib. Azərbaycan suverenliyini təmin edib, onların arzuladıqları müstəqil dövlətimiz qurulub. Prezident İlham Əliyevin qətiyyətli addımları nəticəsində ölkəmizin iqtisadi, hərbi gücü getdikcə artıb və artmaqdadır. Bu gün ölkənin hər yerində şəhidlərin əziz xatirəsinə dərin ehtiram bəslənildiyinin şahidiyik. Bakının ən uca yerində qərar tutan Şəhidlər xiyabanı dövlət tərəfindən yüksək səviyyədə abadlaşdırılıb və bütün azərbaycanlıların, Vətənimizi, xalqımızı sevən hər kəsin and, ziyarət yerinə çevrilib, onların xatirəsinə əbədi məşəl alovlanır. Belə yüksək diqqət və qayğıya görə şəhid ailələri adından ölkə başçısına dərin minnətdarlığımızı bildiririk."

Şəhidlik zirvəsi bütün yüksəkliklərdən ucada dayanan bir zirvədir. Bu zirvəyə qalxmaq yalnız müqəddəs amallar uğrunda çarpışan, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlara nəsib olur. Bu yüksəkliyə ucalan insanlar ölmürlər, əksinə, ölümləri ilə bir əbədilik qazanırlar. İllər ötüb, qərinələr dolaşsa da, şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır. Əhməd Möhbalıyev də xalqın qəhrəmanlıq salnaməsinə adını yazdıran mərd oğullardandır. Bu gün onunla təkcə ailə üzvləri yox, bütün xalq qürur duyur. Anım mərasimində iştirak edən digər ailə üzvləri kimi mən də qürurluyam, fərəh, həyəcan dolu qarışıq hisslər keçirirəm. Hər zaman şəhidlərimizlə fəxr etmişəm, lakin bu gün haqqında danışılan qəhrəmanın ailə üzvü olmaq ikiqat sevinclidir. Onun adı hər zaman ailəmizdə qürurla anılır, xatirəsi daim bizimlə yaşayır. Çıxışçılar Əhmədin Vətən sevgisindən danışanda düşüncələrimə sarılıb onun həyat yoldaşı Şəhla xanımın şəhidimizlə bağlı danışdığı xatirəsini xatırlayıram. "O, Vətənini ən ülvi hisslə sevirdi. Onunla son görüşümüz zamanı bunun bir daha şahidi oldum. Qızımız Firənginazın bir yaşı tamam olurdu. İyulun 11-də atası da gəldi, bir yaşını qeyd etdik. Qarabağda qızğın döyüşlərin davam etdiyini bildirərək üç gün sonra, iyunun 14-də yola düşməyə hazırlaşdı. Onu yolundan döndərməyə cəhd etdim, bəlkə getməyəsən, deyərək onu saxlamaq istədim. O isə "yox, getməliyəm, uşaqlarım (əsgərlərini nəzərdə tuturdu. - M.M) məni gözləyir" dedi və getdi. Bu son görüşümüz oldu, 12 gün sonra iyunun 26-da şəhid oldu".

Könül misralarımızı titrədən bu duyğular, sinəmizi qabardan qürur, şəhidlərin xatirəsinə bəslənən ehtiram, adlarının hər yerdə anılması onun göstəricisidir ki, şəhidlərimiz ölməyiblər, ölümsüzləşiblər, sıralarımızda daim yaşayırlar.



**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# "Qarabağ" instrumental ansamblı Hərbi liseydə

*Azərbaycanın Dövlət Müstəqilliyi günü münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin akt zalında C.Naxçıvanski adına Hərbi Liseyin kursantlarına hərbi vətənpərvərlik hissinin aşılanması, milli-mənəvi dəyərlərin təbliği məqsədilə bayram tədbiri keçirildi.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev iştirakçıları salamlayaraq dövlət müstəqilliyimizin bərpasının 27-ci ildönümü münasibəti ilə hərbi liseyin zabit və kursant heyətini təbrik etdi. Zabit Azərbaycanın dövlət müstəqilliyini əldə etməsindən, müstəqillik dönəmində milli ordumuzun formalaşması prosesindən, ölkəmizin təhlükəsizliyi və müdafiəsinin təminində Azərbaycan Ordusunun müstəsna rolundan geniş məlumat verdi. "Xalqımızın tarix boyu azadlıq uğrunda fədakarcasına apardığı mübarizələrin nəticəsi bugünkü müstəqil Azərbaycan Respublikasıdır. Əldə olunmuş uğurlar həm daxili, həm də xarici düşmənlərimizin hesabına itirilmək təhlükəsi ilə üz-üzə qaldıqda xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı müstəqilliyimizə yeni nəfəs verdi. Azərbaycan Respublikasının suverenliyinin qorunub saxlanılmasında ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ulu Öndər tərəfindən əsası qoyulmuş müdrik siyasətin layiqli davamçısı Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin böyük səyləri nəticəsində dövlətimiz daha da güclənərək beynəlxalq birliyin layiqli üzvünə, regionun qüdrətli və lider dövlətinə çevrilib. Bu gün Milli Ordumuz müstəqil Azərbaycan dövlətinin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və dövlətimizin ərazi bütövlüyünün təminatçısıdır."

Tədbir Əməkdar artist Feyruz Səxavətin rəhbərlik etdiyi "Qarabağ" instrumental ansamblının rəngarəng çıxışları ilə sona çatdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonundan xəbərlər





Əlahiddə Ümumqoşun Orduda bütün növ silah və texnikanın istismarının qış mövsümünə keçidi aparılıb. Silah və texnikanın qış aylarında fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib. Bütün növ silah və texnikalara texniki qulluq göstərilib. Bu zaman texnikaların yanacaq-sürtkü materialları və filtrləri dəyişdirilib, hissə və mexanizmlərə planlı şəkildə qulluq göstərilib, elektrik və hidravlik sistemləri yoxlanılıb. Tankların və döyüş maşınlarının hərəkət hissəsinə, döyüş və güc bölmələrinə xüsusi qulluq göstərilib, bütün hərəkət hissələri yağlanıb, tırtıllar tarımlanıb, mühərriklərə yağ əlavə olunub, zərurət olanların isə yağı dəyişdirilib. Bütün fəaliyyətlər başa çatdıqdan sonra silah və hərbi texnikanın hər bir nümunəsinin təhlili aparılaraq nəticələr qiymətləndirilib.

* * *

Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edən namizədlər liseydəki təlim-tədris şəraiti ilə tanış olublar. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Əlahiddə Ümumqoşun Ordunun birgə tədbirlər planına əsasən, razılaşdırılmış qrafikə uyğun olaraq keçirilən tədbirdə bu dəfə Naxçıvan şəhərində fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri və hərbi rəhbərləri iştirak ediblər. Məktəblilərin Hərbi liseylə tanışlıq prosesi həftədə bir dəfə olmaqla dekabrın 14-dək davam edəcək.

* * *



Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında yüngül atletika birinciliyi keçirilib. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 16 komanda mübarizə aparıb. Hərbi qulluqçuların sürət, çeviklik və dözümlülüyünü yoxlamaq, güclü idmançı və komandaları müəyyən etmək məqsədilə keçirilən birincilikdə 220 idmançı yarışıb. Atletlər Naxçıvan Ordu İdman Klubunun idman şəhərciyində 100, 1000 və 3000 metr məsafəyə qaçış, 400 metr məsafəyə estafet qaçışı, hündürlüyə və uzunluğa tullanma yarışlarında güclərini sınayıblar. Ümumi nəticələrə əsasən yarışların qalibi Heydər Əliyev adına Hərbi Liseyin kursantları olub. Komanda hesabında ikinci yerdə xüsusi təyinatlılar, üçüncü yerdə isə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının atletləri qərarlaşıb. Əlahiddə Ümumqoşun Ordunun zabiti Vahid Məmmədovun rəhbərlik etdiyi yarışlarda fərdi hesabda 100 metr məsafəyə qaçış üzrə əsgər Rahib Cəfərov, 400 metr məsafəyə estafet qaçışı üzrə kiçik çavuş Azadi Rzayev, 1000 metr məsafəyə qaçış üzrə kursant Vüsal Fərəcov, 3000 metr məsafəyə qaçış üzrə əsgər Nəcəfqulu Hüseynov, hündürlüyə tullanma üzrə gizir Siracət Rüstəmov və uzunluğa tullanma üzrə Rəşid İbrahimov birinci yerin sahibi olublar. İlk üçlükdə qərarlaşan hərbi qulluqçu və komandalar Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən diplom və fəxri fərmanlarla təltif ediliblər.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində baş alıb gedən özbaşınalıq səbəbindən şəxsi heyət arasında nizamnamədənkənar münasibətlər zəminində cinayətlərin sayı artmaqda davam edir.

Bu günlərdə artilleriya təyinatlı hərbi hissənin yeməkxanasında gənc əsgərlərlə Qarabağdan olan erməni hərbçilər arasında kütləvi dava olub.

Dava nəticəsində bir neçə nəfərin ağır yaralandığı, çoxlu sayda əsgərin yüngül xəsarət aldığı bildirilir. Kütləvi davanın ən fəal iştirakçıları həbs edilib. Hərbi polis tərəfindən araşdırma aparılır.

* * *

İşğal olunmuş Xocalı yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir rüşvət qalmaqalı baş verib.

Xəbərdə bildirilir ki, hərbi hissənin əsgəri Jora Aleksanyanı məzuniyyətə buraxmaq üçün zabitlər onun valideynindən 300 ABŞ dolları rüşvət tələb ediblər.

J.Aleksanyanın yaxın qohumu bu barədə xəbər verib və bildirib ki, bundan qəzəblənən əsgər valideynləri rüşvət müqabilində hərbi hissələrdən bir çox əsgərlərin məzuniyyətə buraxılmalarının adi hala çevrildiyini prokurorluğa ünvanladıqları məktubda qeyd ediblər.

Hərbi prokurorluq tərəfindən geniş araşdırma aparılır və faktlar təsdiqini taparsa, bir neçə vəzifəli hərbçinin cinayət məsuliyyətinə cəlb ediləcəyi istisna edilmir.

* * *

İşğal olunmuş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində nizamnamədənkənar münasibətlər zəminində növbəti cinayət hadisəsi törədilib.

Məlumatda deyilir ki, Ermənistan vətəndaşı, milliyyətcə kürd olan 1999-cu il təvəllüdlü Şahid Əhmədilyan Qarabağdan olan erməni əsgərlər tərəfindən vəhşicəsinə döyülüb. Bununla əlaqədar onun atası Kərəm Əhmədilyan xəbər verib.

Xəbərdə o da deyilir ki, oğlunun döyülüb xəsarətlər alması azmış kimi, üstəlik ona susması üçün təzyiqlər olduğundan əsgərin atası K.Əhmədilyan Ermənistan Müdafiə Nazirliyinin "qaynar xətt"inə də zəng edib.

Hadisə ictimaiyyətdən gizlədilsə də, araşdırma aparılır.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir biabırçı qalmaqal yaşanıb. Xəbəri yayan sosial şəbəkə istifadəçisinin sözlərinə görə, beşinci bölükdə müqaviləli xidmət edən Mher Davityanın əvvəllər də xidmət yoldaşları ilə cinsi əlaqədə olmasından şübhələnsələr də, bunu sübut edə bilməyiblər.

Bu yaxınlarda Ermənistan ordusunun hərbi qulluqçusu M.Davityanın bu biabırçı əməli sübuta yetirilib.

* * *

İşğal olunmuş Ağdərə rayonunun ərazisində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində əsgərlər arasında növbəti kütləvi zəhərlənmə hadisəsi qeydə alınıb. Məlumatı verən şəxsin bildirdiyinə görə bu yaxınlarda altıncı alayda xidmət edən xeyli sayda hərbi qulluqçu zəhərlənmədən xəstəxanaya yerləşdirilib.

Zəhərlənmədən ölən olmasa da, istifadə müddəti keçmiş qida məhsullarını əsgərlərə verən hərbi hissədə yoxlamalar başlayıb.

Xəbərdə o da iddia edilir ki, bir neçə başqa bölmədə də istifadə müddəti keçmiş qida məhsulları aşkar edilib.

Fakt ictimaiyyətdən gizlədilsə də, hərbi polis tərəfindən araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 859
Nüsxə 3525